# Heydər Əliyev Mərkəzində II Bakı Beynəlxalq Piano Festivalının açılışı olub

Heydər Əliyev Fondunun dəstəyi ilə II Bakı Beynəlxalq Piano Festivalı başlayıb. İyunun 29-dək davam edəcək festivalın məqsədi dünyanın hər yerindən ən yaxşı musiqiçiləri təşviq etmək və müxtəlif ölkələrin nümayəndələrini bir araya gətirməklə mədəni körpü yaratmaqdır.




Azərbaycanın Əməkdar artisti, Bakı Beynəlxalq Piano Festivalının təsisçisi Şahin Növrəsli AZƏRTAC-a festivalla bağlı fikirlərini bölüşərək deyib: "Festivalın çox zəngin bir proqramı var. Məşhur Amerika bəstəkarı Corc Gerşvinin "Mavi rapsodiya" əsərini iki royal üçün hazırlamışam və caz-triosu əlavə etmişəm. Festival günlərində tamamilə fərqli janrlarda əsərlər səslənəcək. Bu il 11 ölkədən gələn məşhur musiqiçilər fərqli məkanlarda çıxış edəcəklər".

Festivalın Heydər Əliyev Mərkəzində keçirilən rəsmi açılış mərasimində mərkəzin nümayəndəsi Rəna Məmmədova qonaqları salamlayaraq ölkəmizdə uzun illərdir Bakı caz, İpək yolu, Qəbələ Beynəlxalq Musiqi, Üzeyir bəy Hacıbəyli festivallarının və Birinci Bakı müasir musiqi günlərinin keçirilməsinin ənənə halını aldığını söyləyib: "Bu gün də biz yalnız milli musiqini deyil, həmçinin dünya musiqisinin təbliğində mühüm rol oynayan beynəlxalq tədbirlərin təşkil edilməsində bilavasitə iştirak edirik".

Azərbaycanın Əməkdar artisti Şahin Növrəsli Bakı Beynəlxalq Piano Festivalının təsisçisi kimi layihəni artıq ikinci ildir təşkil etməkdən məmnunluğunu ifadə edib. O, festivalın ərsəyə gəlməsində və verdiyi davamlı dəstəyə görə Heydər Əliyev Fonduna və əsas sponsor olan "Pasha Holding"ə təşəkkürünü bildirib.

Məşhur pianoçu Elen Mersye Bakıda gözəl insanların əhatəsində olduğunu deyib: "Bütün bunlar məndə xoş təəssürat yaratdı. Şahin Növrəslinin bütün bunları bir araya gətirərək belə bir möhtəşəm festival yaratması məni ilhamlandırır".

Piano festivalı Bakının müxtəlif konsert salonlarında, açıq və qapalı məkanlarda keçiriləcək. Azərbaycan Dövlət Simfonik və Azərbaycan Dövlət Kamera orkestrlərinin müşayiəti ilə dünya ulduzları ilə yanaşı, musiqi bayramında istedadlı gənc nəslin nümayəndələri olan yerli pianoçular və digər musiqiçilər də iştirak edəcəklər.

Festival çərçivəsində ictimaiyyət üçün bir sıra interaktiv ustad dərslər də təşkil olunacaq. Bununla da II Bakı Beynəlxalq Piano Festivalı vasitəsilə bu musiqi bayramının bütün dünyada daha çox tanınmasına, həmçinin Azərbaycan mədəniyyətinin təşviq olunmasına nail olunacaq.

Rəsmi hissədən sonra konsert təqdim edilib. Konsertdə Üzeyir bəy Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə Qara Qarayevin "Yeddi gözəl" baletindən vals, həmin orkestrin müşayiəti ilə Elen Mersye və Şahin Növrəslinin ifasında C.Gerşvinin "Mavi rapsodiya"sı səsləndirilib.

Qeyd edək ki, festivalda Azərbaycan, Fransa, İspaniya, Braziliya, Avstriya, Türkiyə, Kanada, Latviya, Macarıstan, Norveç və Almaniyadan tanınmış musiqiçilər iştirak edirlər. Bu çərçivədə paytaxtın musiqi salonlarında çoxsaylı konsertlərin keçirilməsi nəzərdə tutulub. Konsertlərdə caz, flamenko, tanqo, klassik və s. musiqilər ifa olunacaq. Bir sözlə, festival günlərində canlı musiqi sədaları onsuz da bənzərsiz olan Bakının yay axşamlarına özünəməxsus bir ovqat bəxş edəcək.

Azərbaycan. - 2023.- 17 iyun.- S.15.